

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 226 (23.388)

30 noyabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da İsrafil Məmmədovu yeni vəzifəyə – Dövlət Neft Fondunun icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: – Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov Prezidentin köməkçisi vəzifəsinə təyin edilmişdir. Siz on ildən çoxdur ki, direktor müavini vəzifəsində işləyirsiniz, təcrübə toplamısınız. Mən qərara gəldim ki, sizi icraçı direktor vəzifəsinə təyin edim. Bu, böyük etimaddır. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Sizə tövsiyəm ondan ibarətdir ki, əldə olunmuş uğurları davam etdirəsiniz. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Dövlət Neft Fondu öz aktivlərini artırmalı, onları əmniyyətli şəkildə yerləşdirməlidir. Strateji resursumuz olan Neft Fondumuz daim ölkəmizin, xalqımızın mənafeyi üçün çalışmalıdır.

İsrafil Məmmədov göstərilən böyük etimada görə Prezidentə dərin minnətdarlığını bildirib, Dövlət Neft Fondu tərəfindən bu il ərzində əldə edilmiş nailiyyətlər və gələn il planlaşdırılan addımlar haqqında məlumat verib.

## Quruculuq işləri davam etdirilir



Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda istehsal, təhsil, səhiyyə müəssisələri üçün binaların tikintisi, yolların və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılır. Cari ildə də belə tədbirlər sürətlə davam etdirilir, geniş və iri layihələr icra olunur.

Hazırda Şərur şəhərində yollar və səkilər yenidən qurulur, hündürmərtəbəli yaşayış binası, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti Şərur Rayon Filialı üçün inzibati bina, mədəniyyət sarayı tikilir, təqaüdçülər üçün nəzərdə tutulmuş bina və mərkəzi univermaq əsaslı təmir olunur.

Son illər rayon mərkəzində ictimai yaşayış binalarının əsaslı təmiri də diqqət mərkəzində saxlanılır. Təkcə bu il Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 6 və Kapitan Seyidov küçəsindəki 9 nömrəli yaşayış binalarının əsaslı şəkildə təmiri başa çatdırılıb. Kapitan Seyidov küçəsindəki üçmərtəbəli 11 nömrəli daha bir yaşayış binasının təmiri yekunlaşmaq üzrədir.

24 mənzilli binanın əvvəlki dam örtüyü yenilənib. Fasad hissəyə yeni üzlük çəkilib, nəzərdə tutulmuş yerlərə milli ornamentlərə uyğun cilalanmış travertinlər vurulub. Qapı və pəncərələr, qaz, su və elektrik xətləri dəyişdirilib, dəhlizlərdə paylayıcı elektrik şitləri qoyulub. Yağış sularını axıtmaq üçün nəzərdə tutulmuş metal borular plastik borularla əvəzlənib. Zirzəmidə və dəhlizlərdə təmir işləri davam etdirilir, mərtəbələrarası pilləkənlərə travertin üzlük döşənir. Binanın ətrafında layihədə nəzərdə tutulmuş abadlıq işləri görülür, səkilərə kilit daşlar döşənir, kənarlarına bordürlər düzülür.

Binadakı əsaslı təmir işləri yaxın günlərdə başa çatdırılacaq.

Onu da qeyd edək ki, rayonun Muğancıq Mehrab, Xələc kəndlərində aparılan kompleks quruculuq işləri yekunlaşmaq üzrədir .

✍ Ramiyyə ƏKBƏROVA

## Əhalinin sosial müdafiəsi gücləndirilir

*Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi əhalinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində yerinə yetirilən ardıcıl tədbirlərdən ibarətdir.*

Ötən illərdə olduğu kimi, yola salmaqda olduğumuz 2019-cu il də ölkəmiz üçün uğurlu hadisələrlə yadda qalıb. Bu uğurların davamı kimi əməkhaqqı, pensiya və müavinətlərin mövcud istehlak səviyyəsinə görə artırılması, əhalinin real gəlirlərinin bazar qiymətlərinə uyğunlaşdırılması, aztəminatlı insanların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində ard-arda qəbul olunan qərarları qeyd etmək olar. Bunlar da, öz növbəsində, ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da çox sayda insanın yaşayış səviyyəsinin daha da artırılmasına imkan yaradıb.

Məlum olduğu kimi ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə cari ilin mart ayından etibarən ölkəmizdə əmək pensiyasının minimum məbləği 40 faizə yaxın artırılaraq 160 manata çatdırılıb. Birbaşa olaraq insanların güzəranının daha da yaxşılaşmasına xidmət edən və əhali arasında böyük razılıqla qarşılanan bu qərar muxtar respublikamızda yaşayan əmək pensiyaçılarını da sevindirib. Daha sonra isə cari ilin oktyabr ayından etibarən pensiyaların minimum məbləğinin 200 manata çatdırılması əhalinin sosial müdafiəsi istiqamətində mühüm bir addım olub.

Bəs bu mühüm dövlət qayğısından muxtar respublikada yaşayan pensiyaçılar necə bəhrələnib? Bu sualla Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna müraciət etdik. Fondun Aparatının Pensiya şöbəsinin müdiri Hikmət İsmayılov cavab verərək bildirdi ki, pensiya məbləğlərinin builki artımları ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əhalinin bütün təbəqələrinin rifahının artımına mühüm dərəcədə təsir edib. Əmək pensiyaçılarının aldığı pensiya məbləğlərinin bazar qiymətlərinə, yüksələn həyat standartlarına uyğun olaraq indeksləşdirilməsi həmişə olduğu kimi, bu dəfə də pensiyaçıların sosial rifah halının yüksəlməsinə, aztəminatlı ailələrin böyük sevincinə səbəb olub. Ölkə başçısının həmişə sadə vətəndaşların yaşayış standartlarının artırılması qayğısına qalması onların daha yaxşı yaşamasına hesablanıb.

Fond əməkdaşının sözlərinə görə, hazırda muxtar respublikamızda yaşa, sağlamlıq imkanları məhdudluğa və ailə başçısını itirməyə görə əmək pensiyası alan sakinlərin sayı 51 min 189 nəfərdir. Hazırda bunlardan haqqında bəhs etdiyimiz artımlardan faydalanan, yəni minimum pensiya məbləği 200 manata çatdırılan pensiyaçıların ümumi sayı isə 26 min 758 nəfər təşkil edir. Onların 10 min 93 nəfəri sağlamlıq imkanı məhdudluğa, 14 min 527 nəfəri yaşa, 2 min 138 nəfəri isə ailə başçısını itirməyə görə dövlətimiz tərəfindən pensiya təminatı alır.

O qeyd etdi ki, bu ilin yanvarından əmək pensiyaçılarının pensiyasının sığorta hissəsi 2018-ci il üçün Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş ortaaylıq nominal əməkhaqqının artım tempinə uyğun olaraq digər bir artım da həyata keçirilib. Belə ki, əmək pensiyalarının sığorta hissəsi ortaaylıq nominal əməkhaqqının artım tempinə uyğun olaraq 3 faiz artırılıb. Bu artım Naxçıvan Muxtar Respublikasında yaşayan dövlət qulluqçusu, hərbi qulluqçular və xüsusi rütbəli şəxslər istisna olmaqla, digər əmək pensiyaçılarına şamil edilib ki, bu da, ümumilikdə, 48 min nəfərdən çoxdur.

Dövlətimiz tərəfindən vətəndaşlara verilən sosial zəmanətlərdən biri də yeni doğulan uşağa və vəfat edən vətəndaşın dəfni üçün verilən sosial müavinətlərin məbləğinin artırılmasıdır. Belə ki, cari ilin aprel ayından uşağın anadan olmasına görə müavinət 109 manatdan 200 manata çatdırılıb. Sığortaolunan vəfat etdikdə dəfn üçün ödənilən müavinət 145 manatdan 300 manata, əmək pensiyaçısı vəfat etdikdə dəfn üçün ödənilən müavinətin məbləği 348,81 manatdan 600 manatadək, yəni minimum əmək pensiyasının məbləğinin 3 mislinədək artırılıb.

Göründüyü kimi, insanların sosial müdafiəsinin gücləndirilməsi sahəsində qəbul olunmuş bu qərarlar, geniş mənada, əhalinin rifahına təsir edir. Bütün bunlar isə ölkəmizdə insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Bu, müstəqil Azərbaycan Respublikasının artan iqtisadi qüdrətinin hər bir vətəndaşının firavan həyatına çevrilməsi deməkdir.

✍ Əli CABBAROV

*Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının inkişafı da daim diqqət mərkəzində saxlanılır. Diyarımızda aqrar sahənin inkişafı istiqamətində aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olub. O cümlədən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş dövlət proqramları muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan verib, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılıb. Qəbul edilən dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər məhsul bolluğuna zəmin yaradıb, daxili bazarda yerli məhsulların həcmi artıb.*

## Soyuducu anbarlar məhsul tədarükü qış mövsümündə əhalinin yerli məhsullarla təminatına imkan verəcək




Qeyd edək ki, yerli istehsalın inkişaf etdirilməsi ölkənin iqtisadi tərəqqisinə müsbət təsir etməklə daxili bazarın qorunmasında, xarici valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amillər nəzərə alınaraq muxtar respublika iqtisadiyyatının bütün sahələrində dövlət texniki, maliyyə və innovasiya dəstəyi ilə yeni-yeni istehsal və xidmət sahələri istifadəyə verilir. Bunun nəticəsində də özəl sektorun, xüsusən də kənd təsərrüfatının daha da inkişafına səbəb olacaq layihələr reallaşdırılır. Dövlətin maliyyə dəstəyi ilə yaradılan belə istehsal və xidmət sahələri əhalinin keyfiyyətli yerli məhsullarla təmin edilməsinə şərait yaradır. Bu işlər sırasında özünəməxsus əhəmiyyəti ilə seçilən layihələrdən biri də soyuducu anbar komplekslərinin yaradılmasıdır.

Soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Eyni zamanda bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində də mühüm rola malikdir. Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatı, əsasən, yerli istehsal hesabına ödənilir.

Qeyd edək ki, muxtar respublikamızda yaradılmış soyuducu anbar təsərrüfatı payız-qış aylarında əhali istehlakında mühüm paya malik olan yerli meyvə və tərəvəz məhsullarının münasib qiymətlərlə satışa çıxarılmasına imkan verir. Bundan əlavə, soyuducu anbarlar, əsasən, diyarımızda yetişdirilən meyvə-tərəvəz hesabına doldurulduğundan aqrar sahənin inkişafına, istehsalçıların öz işini genişləndirməsinə stimul yaradır. Belə ki, soyuducu anbarlar muxtar respublikamızın, demək olar ki, bütün rayonlarında olduğundan bu, meyvə-tərəvəz məhsullarının daşıma xərclərinin və müvafiq olaraq satış qiymətlərinin də aşağı salınmasına təsir edir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, hazırda muxtar respublikamızda ümumi tutumu 15 min 945 ton olan 38 soyuducu anbar var. Mövsümlə əlaqədar Naxçıvan şəhərindəki, Şərur, Ordubad, Kəngərli, Şahbuz və Sədərək rayonlarındakı soyuducu anbarlara meyvə-tərəvəz məhsullarının tədarükü davam etdirilir. Noyabrın 15-dək həmin anbarlara 4579,5 ton kartof, 335,97 ton soğan, 582,03 ton alma, 10,65 ton kələm tədarük olunub. Payız mövsümünün sonunadək bu anbarlara daha çox kənd təsərrüfatı məhsullarının tədarük ediləcəyi gözlənilir. Bu da qış mövsümündə əhalinin yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına imkan verəcək.

✍ Səbuhi HƏSƏNOV

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 2 avqust tarixdə imzaladığı Sərəncam muzeyin yaranması, təşəkkülü, inkişafı, ilk qurucuları barədə məlumatların öyrənilib ictimaiyyətə daha geniş şəkildə çatdırılmasını və bu sahədə əlavə tədqiqatların aparılmasını zəruri edir.*



*Naxçıvan Dövlət Tarix Muzeyi — 95*

# Naxçıvanın ilk dövlət muzeyi, onun qurucusu və ilk direktoru

Bu baxımdan Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin (indiki Naxçıvan Dövlət Tarix Muzeyinin) ilk direktoru olmuş Naxçıvan şəhər sakini, ziyalı, həvəskar kolleksiyaçı Balabəy Əlibəyov haqqında və onun muzey işinə verdiyi töhfələr barədə oxucularımızı da məlumatlandırmağı özümə mənəvi borc hesab edirəm.

Qeyd olunmalıdır ki, bu maarifpərvər şəxs haqqında məlumat çox məhduddur. Apardığımız araşdırmalar, əsasən, Balabəy Əlibəyovun kolleksiyaçılıq və muzeydəki fəaliyyəti ilə bağlı olmuşdur. Onun barəsində filologiya elmləri doktoru Fərman Xəlilovun "Naxçıvanı öyrənən elmi cəmiyyət" adlı kitabında da məlumatlar verilmişdir. Tədqiqatçıların Balabəy Əlibəyovun diplomatik fəaliyyəti ilə bağlı məsələləri araşdırmaları nəticəsində müəyyən edilmişdir ki, o, 1903-1908-ci illərdə polis zabiti, 1908-1911-ci illərdə Qars Polis İdarəsinin rəsmi tərcüməçisi kimi xidmət etmişdir. 1911-ci ildə həmin vəzifədən təqaüdə çıxan maarifpərvər ziyalımızın peşəkarlığı və digər üstün cəhətləri nəzərə alınaraq 1917-ci ilə qədər yenə də Qars Polis İdarəsində tərcüməçi kimi fəaliyyətini davam etdirmişdir. O, 1917-1920-ci illərdə Urmiya şəhərində polismeyster kimi fəaliyyət göstərmişdir. 1920-ci ildən başlayaraq sovet müəssisələrində xidmət edən Balabəy Əlibəyov Naxçıvanın Qarsdakı müvəkkili kimi fəaliyyətini 1924-cü ilin mart-aprel aylarından 1925-ci ilin əvvəllərinə qədər davam etdirilmişdir.





1999-cu ilin yazında Naxçıvan Dövlət Tarix Muzeyinin yaranması və təşəkkül dövrü ilə bağlı məlumatlar əldə etmək məqsədilə Naxçıvan şəhərində yaşayan 85-90 yaşlı sakinlərlə müxtəlif vaxtlarda muzeydə söhbətlər aparılmışdır. Həmin söhbətlər zamanı Balabəy Əlibəyovu yaxından tanıyan filologiya elmləri namizədi Lətif Hüzeynzadənin, Səttar Məmmədovun, Məmmədtağı Əhmədovun verdikləri məlumatlara görə, onun evi (muzey həmin evdə yerləşirdi) şəhərin mərkəzində indiki Atatürk (keçmiş Kirov) küçəsindəki və son illərədək kommunal və məişət xidməti müəssisələri kombinatının yerləşdiyi binanın arxasında olmuşdur. Ev Naxçıvan üçün səciyyəvi olan müxtəlifölçülü yumru formalı ornamentlərlə bəzədilmiş darvaza qapısından keçməklə həyətin ortasında idi. Muzeyin özü 2 otaqda və çox da böyük olmayan dəhlizdə yerləşdirilmişdi.

Muzeydə Naxçıvanın tarixinə və arxeologiyasına, etnoqrafiyasına aid materiallar olmuşdur. Onların arasında qızıldan və gümüşdən hazırlanmış qadın bəzək və zinət əşyaları, qədim xalçalar, Şərq parçaları (qumaş), qələmkarlar, saxsı və misdən hazırlanmış məişət əşyaları, qədim silahlar, Səfəvilər dövrünə aid sikkə kolleksiyası, XIX əsrin əvvəllərində tərtib edilmiş torpaq mülkiyyətinə dair sənədlər, tarixi-memarlıq abidələrinin tikintisində istifadə olunan inşaat materiallarının nümunələri və digər maraqdoğuran əşyalar xüsusi yer tuturdu. Balabəy Əlibəyov özünün gənclik illərindən toplamağa başladığı muzey əhəmiyyətli əşyalardan ibarət kolleksiya, sonralar isə onun əsasında öz evində muzey təşkil etməklə Naxçıvanda muzey işinin təşəkkülünə müəyyən töhfələr vermişdir. Demək olar ki, onun muzeyi artıq 1918-ci ilə kimi Naxçıvanda mövcud idi və onu yaxından tanıyan bir qisim naxçıvanlı ziyalılar həmin muzeydə olmuşdular.

O dövr üçün belə bir muzeyin yaranması böyük hadisə idi. 1918-1920-ci illərdə Azərbaycanın dövlət müstəqilliyini gözü götürməyən qüvvələr tərəfindən ölkədə ictimai-siyasi vəziyyətin gərginləşdirilməsi və ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar səbəbilə naxçıvanlıların köməyinə gələn türk əsgərləri tərəfindən bəhs etdiyimiz muzeydəki əşyalar götürülərək (çox güman ki, həmin əşyaların təhlükəsizliyini təmin etmək üçün) Qarsa aparılmışdı. Sonralar həmin əşyaların bir qismini geri qaytarmaq Balabəy Əlibəyova müyəssər olmuşdu. O, kolleksiyasını geri qaytardıqdan sonra öz evində muzey yaratmış və zaman-zaman buraya maraq göstərib ziyarət edənlərin də sayı artmışdı.

Artıq 1920-ci ildə Bakıda Azərbaycan Dövlət Muzeyinin yaradılması, 1923-cü ildə Azərbaycan Arxeologiya Komitəsinin və Azərbaycanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin təsis edilməsi və nəhayət, 1924-cü il sentyabr ayının 21-24-də Bakıda Ümumazərbaycan Diyarşünaslarının Qurultayının keçirilməsi respublikanın bəzi bölgələrində muzeylərin açılması işinə təkan vermişdi.

Naxçıvan MSSR Xalq Komissarları Şurasının 30 oktyabr 1924-cü il tarixli qərarı ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi yaradılmış və Naxçıvan MSSR Xalq Maarif Komissarlığına tapşırılmışdı ki, ayrı-ayrı təşkilatlarda, evlərdə və şəxslərdə saxlanılan tarixi-etnoqrafik əhəmiyyətə malik olan əşyaların muzeydə mühafizə edilməsi üçün tədbirlər görsün.

Araşdırmalardan aydın olur ki, o dövrdə muzeyin formalaşdırılması üçün görülən tədbirlər heç də səmərə verməmiş və muzey 1926-cı ilədək fəaliyyət göstərmək imkanlarına malik olmamışdır. Belə olduğu halda, Naxçıvanın yerli hökumət orqanları vəziyyətdən çıxış yolunu o zaman Balabəy Əlibəyovun şəxsi evində yaratdığı muzey kolleksiyasını dövlət mülkiyyəti elan etməkdə görmüşdür.





Ona görə də Naxçıvan MSSR Xalq Komissarları Şurası özünün 6 yanvar 1926-cı il tarixli iclasında həmin muzeyin respublika mülkiyyətinə verilməsi haqqında məsələni müzakirə edərək müvafiq qərar qəbul edir. Qəbul edilən qərara əsasən muzey V.Həsənzadə, M.Mirheydərzadə, A.Əliyarov və digərlərindən ibarət yaradılan komissiya vasitəsilə respublika mülkiyyətinə qəbul edilir. Naxçıvan MSSR Xalq Komissarları Şurasının ehtiyat fondundan ona ayda 40 manat məvacib ödənilməsi nəzərdə tutulmaqla Balabəy Əlibəyov ömürlük olaraq muzeyin direktoru təyin edilir.

Tarix elminin əsas sahələrindən biri kimi muzey işi və muzeyşünaslıq həmin dövrdə respublikamız üçün yeni sahə olduğundan, bu sahədə peşəkar kadr çatışmazlığından və bir ziyalının həvəskar kolleksiyaçı kimi evində yaratdığı muzey artıq dövlət himayəsinə keçdiyindən onun işinin təkmilləşdirilməsinə, bir sıra texniki avadanlıqlarla təchiz edilməsinə ehtiyac var idi.

Bu baxımdan muzeylə bərabər Naxçıvan MSSR Xalq Maarif Komissarlığının tabeliyində fəaliyyət göstərən Naxçıvanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin Tarix-Etnoqrafiya Muzeyinin təşəkkülündə və inkişafında xüsusi xidmətləri olmuşdu. Muzeylə cəmiyyətin əlaqəli işləməsi onun get-gedə zənginləşməsinə müəyyən mənada kömək etmişdir.

Naxçıvanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin 1926-cı il 25 iyun tarixli iclasında professor V.M.Sısoyevin Xaraba Gilanda, 1926-cı ilin 12 və 25 sentyabr tarixli iclaslarında isə A.A.Millerin Qızılburunda (Qızılvəngdə) apardıqları arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələrinin bir qisminin Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinə verilməsi barədə qərar qəbul olunmuşdur. Həmin iclaslarda, həmçinin qazıntı yerlərində çəkilmiş fotoşəkillərin də muzeyə verilməsi cəmiyyət üzvləri tərəfindən tələb edilmişdir. Qeyd etmək lazımdır ki, Naxçıvan tarixi baxımdan özünün zənginliyi ilə səyyahların, arxeoloq və etnoqrafların diqqətini həmişə özünə cəlb etdiyindən onlar intensiv olaraq bu qədim diyara gələrək arxeoloji qazıntı və elmi araşdırma işləri həyata keçirir, tarixi yerləri gəzir və maraqdoğuran nə varsa qeydiyyatını aparırdılar.

Professor V.M.Sısoyev 1926-cı ildə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyində olmuş və 1926-1927-ci illərin yay aylarında Naxçıvana səyahətinə dair hesabatında Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinə xüsusi yer ayırmış və öz təəssüratlarını yazmışdır. Professor V.M.Sısoyev 1927-ci ildə burada olarkən artıq Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi mövcud idi və Naxçıvan MSSR Xalq Maarif Komissarlığının tabeliyində fəaliyyət göstərirdi. Onun özünün də bunlardan xəbərdar olmasına baxmayaraq, V.M.Sısoyev öz hesabatında muzeydən bəhs etdiyi bölməni "Balabəy Əlibəyovun Naxçıvan Muzeyi" adlandırmışdır. Professorun qeydlərindən aydın olur ki, həmin dövrdə muzey hələ də ilk yaradıldığı şəxsi evdə yerləşirdi.

V.M.Sısoyevin hesabatında Naxçıvan Tarix-Etnoqrafiya Muzeyini "Balabəy Əlibəyovun Naxçıvan Muzeyi" adlandırması heç də təsadüfi deyildi. Çünki bir tərəfdən muzey ilk dəfə həmin ziyalının şəxsi kolleksiyasının bazasında təşkil edilmiş və artıq dövlətin himayəsində olmasına baxmayaraq, yenə də onun evində yerləşirdi. Digər tərəfdən isə Balabəy Əlibəyovun muzeyi artıq Naxçıvanda tanınmışdı.

Həmin hesabatda o da qeyd edilmişdir ki, "Muzey Naxçıvanın diqqətəlayiq yerindədir və çox az şəhər belə muzeyi ilə öyünə bilər". Muzeyin bu cür dəyərləndirilməsi sonrakı illərdə Naxçıvanda muzey işinin təşəkkülündə və inkişafında həmin muzeyin nə qədər əhəmiyyətli rol oynamasından xəbər verir.

Balabəy Əlibəyov ömrünün sonunadək muzeyin direktoru işləmişdir. Onun nə vaxt vəfat etməsi barədə dəqiq məlumat olmasa da, ehtimal etmək olar ki, 1929-1930-cu illərdə vəfat etmişdir. Çünki artıq 1930-cu ilin avqustundan muzeyə yeni direktor təyin olunmuşdur.

*Bu yazıda Naxçıvan Dövlət Tarix Muzeyinin qurucusu və ilk direktoru olmuş Balabəy Əlibəyov haqqında, onun kolleksiyası və muzeydəki fəaliyyəti barədə oxuculara bəzi məlumatlar verməyə çalışdıq. Heç şübhəsiz ki, elm adamları, tədqiqatçılar diyarımızda tarix və mədəniyyətimizin, milli dəyərlərimizin qorunub yaşadılmasına və təbliğinə göstərilən hərtərəfli dövlət qayğısına cavab olaraq Ali Məclis Sədrinin "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 2 avqust tarixli Sərəncamından irəli gələn mühüm vəzifələrin həyata keçirilməsinə, Naxçıvanda muzey işinin tarixinin daha dərindən araşdırılmasına öz töhfələrini verəcəklər.*

**Nizami RƏHİMOV**
***Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru,***
***Naxçıvan Muxtar Respublikası Əməkdar mədəniyyət işçisi***

---

## Sakinlərlə maarifləndirici görüş



*Özünüməşğulluq proqramına cəlb edilmiş sosial qayğıya ehtiyacı olan şəxslərin maarifləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin davamı olaraq Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti və Dövlət Baş Sığorta Agentliyinin əməkdaşlarının iştirakı ilə bir qrup sakinlə görüş keçirilib.*

Tədbirdə sakinlərə verilmiş aktivlərdən təyinatına uyğun istifadə edilməsi, iri və xırdabuynuzlu heyvanların saxlanılması, yetişdirilməsi və istifadə olunmasının təşkili, onlar arasında xəstəliklərə qarşı peyvəndləmə tədbirlərinin aparılması, sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb ola biləcək hadisələrin baş verməsi ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəliklər və digər zəruri işlərlə bağlı müvafiq məlumatlar verilib.

Sonra tədbir iştirakçılarına bukletlər təqdim olunub. Həmçinin fərdi ailə təsərrüfatlarını nümunəvi inkişaf etdirdiyinə görə bir nəfər nazirlik tərəfindən fəxri fərmanla mükafatlandırılıb.

Sonda sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# İki payızın bir yazı...

***Bir ömrü iki payızın arasına sığdırmışdı Uca Tanrım. O ömür ki payızda başlamışdı, payızda da bitdi. Bu payız günlərinin birində müsahib olduğum payızın özü ilə "Yolayrıcında söhbət"imizdə xatırladıq həmin ömrü yenidən. Məmməd Araz yurdu Nursu kəndini üç hissəyə – aşağı, orta və yuxarı məhəllələrə bölən yolayrıcında. Yaşıl yosunu bozarmış dağların, xəzan yelinin taqətini ağaclardan üzdüyü yarpaqları, düzlərin otunu – avarını sovurub bir küncünə topladığı dərələrin soluxmuş rənglərinin müşayiətilə üz tuturam orta məhəlləyə – Məmməd Arazın doğulduğu, uşaqlıq çağları keçən məhəlləyə. Küləyin göz baxdıqca uzanan dərələrin sonsuz dərinliklərində vıyıldayıb yalçın qayalara çırpılaraq ətrafda əks-səda verən səsində həzin bir ayrılıq nəğməsi duyulur. Bu, ömrünün tamamına sayılı günlər qalan payızın özünə bəstələdiyi ayrılıq nəğməsidirmi, yoxsa illər öncə "Yazda ölüm asan olur, Allah, yaza saxla məni", – deyən Məmməd Arazı yaza qısqanan payızın onu öz ağuşunda yeni bir dünyanın sakininə çevirərkən bu sarsıdıcı ayrılığa həsr etdiyi nəğmədirmi? Yox, bu nəğmə iki payızın arasındakı bir yazın gülünə-çiçəyinə, axarına-baxarına, rənglərinə heyranlıq, çağlamasına, coşmasına qısqanclıq nəğməsidir. İki payızın arasındakı yaza, bahara – Məmməd Araz ömrünə, yaradıcılığına qibtədən yaranan ayrılıq nəğməsidir…***



*"Xalq şairi Məmməd Araz"*
*Rəssamı: Həbibə Allahverdiyeva*

Yolboyu dinlədiyim bu nəğmə zirvəsi buludlarla qonşu olan dağların sinəsinə yayıldıqca şairin *"Zirvəsində qanad açdım, ətəyində süfrə açdım, qoyub gəldim gözüyaşlı, dağlar çətin qala mənsiz"* misraları da qarışır bu nəğməyə. Yolboyu mənə yoldaşlıq edən bu vüqarlı dağlardan ilham alıb cavab verirəm şairə: – Bu dağlar sənsiz qalmazdı, təsəllisi sən olmasaydın, ey dağlar şairi, dağ vüqarlı şair. Dağı poetikləşdirdikcə, lirikanın, şeiriyyətin baş qəhrəmanına çevirdikcə dağlar səni duydu, əyilmədi, ərimədi, əzəmətdən düşmədi. Dağ ulu baba, dağ ata oldu şeirlərində. Dağ kiçilib övlad oldu, yenidən böyüdü şeirlərində. Bax, beləcə, sənsiz qala bildi.

İkicə addımlığındayam *"Atlanam qonşunun qara damından, köhnə daxmamızı görəm yuxuda"*, – deyən şairin ata ocağının. Bu ata yurdunda İnfil kişinin qara suvağına əllərinin izi düşən köhnə daxmanın yerində indi ikimərtəbəli yaraşıqlı ev ucalsa da, bu əzəmətli bina mənim gözümdə balacalaşıb Məmməd Arazın doğulduğu, uşaqlığından xatirələr hopan kiçik daxmaya çevrilir. Ətrafında payızın ayrılıq nəğməsi ilə ağaclardan ehmalca enib üst-üstə yığılan, içinə girsən, bəlkə də, dizədək qalxan xəzan yarpaqlarının arasında kəndi qədər kiçik bir daxma. Bu daxmada od var, ocaq var, bir də müqəddəslik var...



*Çırpısı tətikdə, odunu dəmdə,*
*Səhərin gözündən od alıb ocaq,*
*Yanır aram-aram, onu sinəmdə*
*Sonra kim söndürüb, kim yandıracaq?*

– deyən şair, ata ocağı, onun odu-alovu ilə qovurulan köksündə o odu sənin şeiriyyətin yandırdı. Bu od sönməyəcək ki, kimsə yandırsın. O od sevgidir, bu xalqın şairinə istəyi, məhəbbətidir. O od odluqdan lap çoxdan çıxıb, məşələ dönüb, əbədi bir məşələ...

Payız nə gözəl müsahibdir Məmməd Araz haqqında. O payızdan bu payıza – 86 il əvvəlki oktyabrdan 86 il sonrakı dekabrın arasına bahar yeniliyi, yaradıcılığı, təravəti, qayəsi sığan 71 illik ömürdən söhbət açır.

*Əlli il! Bəsimdir, orta bir ömür,*
*Taleyin hökmü də baxtını bilir.*
*Ulduzlar qocalır,*
*Ulduzlar ölür.*
*Mən nəyəm? Zərrənin milyonda biri.*

– deyib 50 yaşla vədələşən, *"Vay odu – olasan yataq yorğunu, vay odu – vədinə ölüm gecikə"* söyləyən şairin alın yazısı onun vədinə xilaf çıxır. 50 ilin üstünə 21 il də qoyub onu həyatın acılı-şirinli günlərindən keçirərək 71 yaşında bir payız günü ömrün son mənzilinə yolçu edir.

İnfil kişinin, Cahan xanımın nəfəslərinin istisi, bir-birlərinə olan sevgisi ilə qurulan, 5 övladlarını böyütdükləri bu kiçik daxmadan çıxan Məmməd İbrahim vurğun olduğu Araz qədər böyüsə də, coşub, kükrəsə də, hələ atasının verdiyi Məmməd adına Araz yükünü yükləsə də, bu daxmanı unutmurdu. Elə unutmurdu ki, yuxularından da çıxmırdı. Məncə, bu, ona görə idi ki, bu daxmada onun alnına şairlik yazılmışdı. Bu daxmada bir Vətənin, bir millətin ürəkdən yananına çevrilmişdi. Bu daxmada hələ o doğulanda Məmməd Araz doğulmuşdu...

...Mən nəyəm? Zərrənin milyonda biri deyirdin, Məmməd Araz. Xeyr, sən zərrənin milyonda biri yox, milyonda bir zərrə idin. Milyonlarda olmayan Vətən, millət, yurd sevgisi vardı qəlbində. Vətən qələmində ən dəyərli söz, qəlbində "Nəğmə" idi – "Azəri nəğməsi". Bu dünyadan köçənədək *"Millət yolu haqqın yolu, ucal, millət bayrağı, Vətən andı xalqın yolu, yaşa, Vətən torpağı"*, – deyib millətini xoş sabah sorağında keşikdə durmağa, qandan, qandaldan uzaq bir dünya qurmağa çağırdın. Araz şeirinin "pərisi" oldu. Ömrün boyu "Araz yadıma düşüb", "Araz üstə çinar gördüm", "Arazın işıqları"nda "Yenə Arazı gördüm" dedin, dedin... Sən bir Azərbaycan sevdalısı doğuldun, yaşadın, "Azərbaycan, dünyam mənim" deyə-deyə ana yurdun hər daşına üz qoydun. Sənin azəri eşqin Vətən hüdudlarını aşıb türk soydaşımız Salih Okumuşun "Çağdaş Azərbaycan şairi Məmməd Araz" adlı doktorluq dissertasiyasına çevrilib, onu ədəbiyyatşünas-alim də etdi. Müəllif eyniadlı kitabında yazır: *"Məmməd Arazın sirri bir insan ömrünün bir şair ömrünə qurban verilməsi bahasına ortaya çıxmışdır. O, olduğu kimi görünən, göründüyü kimi olmağa çalışan bir şairdir. Azərbaycan torpağını Arazsız təsəvvür etmək mümkün olmadığı kimi, bugünkü Azərbaycan şeirini də Məmməd Arazsız düşünmək mümkün deyil. Məmməd Araz bütün Azərbaycan deməkdir. O Azərbaycan ki şairin ifadəsi ilə "qayalarda bitən bir çiçək, çiçəklərin içində qaya"dır".*



*"Məndən bu dünyaya nə qaldı görən?"* – deyən şair, sənin dünyan Vətənin, Vətənə qalan isə sözün idi – dəyərli, kəsərli, düşündürən, təsir edən sözün...

*Bu dünyam Vətənin xəritəsidir,*
*O, göz dağlayası, göz örtəsidir.*
*Şeir, söz səhəri, söz ertəsidir,*
*Vətənə qaldısa, yada qalmadı.*

Milyonlarda olmayan yanğı vardı qəlbində, Məmməd Araz. Lirika, romantika, şeiriyyət fəlsəfəsi vardı içində. Sən torpaq şairi, dağ şairi, təbiəti şeirə gətirən şairsən. Qəlbindəki çırpıntını, hərarəti şeirə çevirən, həqiqəti şeiriyyətə gətirən şairsən. "Məhəbbətin öz yeri var", – deyib məhəbbəti şeirə gətirən şairsən. "Göy altında, yer üstündə" "Necə yaşadımsa..." söyləyən, "Əgər mən özümlə üz-üzə gəlsəm" "Şair, nə qazandın?" sualına "Hesabat" verən şairsən. "Yolçu, yolun haradı?" soruşub, "Qoşulum sənə bəlkə, birləşib çıraq olduq, yolu itənə bəlkə" dedin. Yolçu səni yoldaş etməyəndə ürəyinə üz tutub "Mənə biganəlik öyrət, ürəyim!" deyib *"Qıvrılım içimdə, yatım içimdə. Yaxşını yamandan seçə bilməyim, büdrəyim, yıxılım, batım içimdə"* arzuladın. Lakin biganəlik hara, sən hara, şair. Nə qıvrıla, yata, nə də büdrəyə bilməzdin. Əksinə, yuxusuz gecələrinə özün şam oldun, yandın, əridin. Çünki səni vurğunu olduğun təbiət belə yetirmişdi: millət fədaisi, Vətən sevdalısı, söz cəfakeşi…

Elə bu düşüncələrlə də geri qayıdıram. Yolayrıcına çatanda *"Nursuya gələsən, Məmməd Arazın ev-muzeyinə baş çəkməmiş geri qayıdasan, həm də şairin anım günü ərəfəsində, doğru olmaz"*, – deyib üz tuturam yuxarı məhəlləyə. Gözəlliyinə bir az da payız rənglərinin qatılıb başqa aləm yaratdığı yuxarı məhəlləboyu muzeyə doğru addımladıqca şairin "Nə bilim" şeirinə bəstələnmiş mahnını dodaqaltı zümzümə edirəm:

*Səndən mənə bir ömürlük xatirə,*
*Məndən sənə nə qalacaq, nə bilim?..*

Bu misraların cavabını kəndin ən yüksək və mənzərəli yerində, şairin xatirəsinə yaradılan muzeydə tapıram: Səndən bu dünyaya böyük bir irs qalıb – ədəbi toplu, bənzərsiz poeziya, doyumsuz lirika. Vərəqləndikcə hələ neçə-neçə nəsilləri "qidalandıracaq", milli-mənəvi ruhuna çökə biləcək, sanki bu gün üçün yazılıbmış kimi təsir edəcək bir irs.

Xalq şairinin adına layiq muzeyi gəzib, şairin həyat və yaradıcılığı ilə bir daha tanış olandan, şəxsi və muzeyə hədiyyə olunan əşyalara, fotoşəkillərə tamaşa edəndən sonra bir daha iki payızın bir yazının – Məmməd Araz baharının əsl xəzinə, hələ də tam aşkarlanmamış bir xəzinə olduğunu düşünürəm.

Bayırda axşamçağının sazağında hələ də ayrılıq nəğməsini oxuyan payızın müşayiətilə geri qayıdarkən "Nə bilim"in növbəti misralarından biri də yadıma düşür:

*Bu oyunda kim uduzdu, kim uddu?*

Bu misraya dəyərli həmkarım Sahil Tahirlinin cavabını xatırlayıram: – Bu oyunda sən uddun, Məmməd Araz. Mənimsə bu misraya cavabım belədir: – Həqiqətən də, oyunlardan ibarət həyata sən poeziyanla, duyğularınla, cəsarətinlə qalib gəldin, Məmməd Araz…

**Mətanət MƏMMƏDOVA**

# Sədərək Rayon Mərkəzi Stadionu yenidən təmir olunub



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən Sədərək rayonunda mərkəzi stadionun yenidən qurularaq gənclərin istifadəsinə verilməsi Naxçıvanda idmana, idmançılara göstərilən qayğının növbəti töhfəsidir.***

Stadionun açılış mərasimində çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov bildirib ki, muxtar respublikada geniş vüsət alan tikinti-quruculuq işləri bu rayonu da əhatə edib. Sədərəkdə yeni inzibati binalar, idman və digər infrastruktur obyektləri tikilərək istifadəyə verilib. Bütün sahələrdə olduğu kimi, rayonumuzda idmana xüsusi diqqət və qayğı ilə yanaşılır. Ümumiyyətlə, muxtar respublikamızın şəhər və rayonlarında, kəndlərində mütəmadi olaraq yeni idman obyektləri, stadionlar tikilərək gənclərimizin ixtiyarına verilir. Rayon mərkəzi stadionunun yenidən bərpası burada uşaq və yeniyetmələrin, gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasında müstəsna rol oynayacaq. Eyni zamanda yenidən təmir olunan stadionda keçiriləcək yarışlar, turnirlər istedadlı gənclərin üzə çıxarılmasına şərait yaradacaq.

Naxçıvan Muxtar Respublikası Gənclər və idman naziri Azad Cabbarov isə çıxışında vurğulayıb ki, muxtar respublikada aparılan uğurlu idman siyasəti, yaradılan müasir infrastruktur burada beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə imkan verir. İdmançılar üçün yaradılan şərait onların hər bir yarışda uğur qazanmasına zəmin yaradır. Təbii ki, bunun əsas səbəblərindən biri də şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də idman obyektlərinin tikilib istifadəyə verilməsidir.

Sonda Azad Cabbarov yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Kənd sakinlərindən Arif Qasımov və Samil Hüseynov isə çıxışlarında idmana göstərilən qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Çıxışlardan sonra futbol üzrə Naxçıvan Muxtar Respublika Çempionatının (Region Liqasının Naxçıvan Muxtar Respublika zonası) növbəti turu çərçivəsində "Sədərək" və "Kəngərli" komandaları meydana çıxıblar. Görüş "sülh"lə başa çatıb – 2:2.

Qeyd edək ki, uzunluğu 110, eni isə 70 metr olan təbii ot örtüklü stadionun ərazisində 120 nəfərlik müasir oturacaqlar quraşdırılıb. Stadionun ərazisində futbolçular üçün soyunub-geyinmə otaqları, hakim və həkim otaqları, hamamlar tikilib. Bununla yanaşı, stadionun ərazisində basketbol meydançası da inşa edilib və idman qurğuları quraşdırılıb, stadionun ətrafında olan ad göstəriciləri yenilənib. Burada muxtar respublika çempionatı üzrə oyunların, həm də rayon birinciliklərinin keçirilməsi nəzərdə tutulur.

# Futbol hakimləri üçün daha bir seminar

*Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə hakimliklə bağlı seminar keçirilib.*

Region Liqası Naxçıvan zonasındakı 4-cü turun ilk matçının ardından AFFA Hakimlər Komitəsinin üzvü, FİFA referisi Vüsal Əliyevin iştirakı ilə reallaşan seminar futbol hakimlərinin bu sahədəki bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədi daşıyıb. Naxçıvanda təşkil olunan yeni hakimlik kurslarının iştirakçıları və hakimlik fəaliyyəti ilə məşğul olan ədalət təmsilçilərinin qatıldığı seminarda elektron lövhə vasitəsilə mübahisəli epizodların analiz və müzakirəsi aparılıb. Vüsal Əliyev hakimlərin idarəçiliyi ilə bağlı irad və tövsiyələrini bildirib. Futbolda tətbiq olunan yeni oyun qaydaları da seminarın əsas mövzularından olub. İştirakçıların suallarını cavablandıran mütəxəssis beynəlxalq təcrübəyə əsaslanan fikirlərini diqqətə çatdırıb.

AFFA Hakimlər Komitəsinin üzvü, FİFA referisi Vüsal Əliyev "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Uzun müddətdən sonra Naxçıvan futbolunda canlanma görmək, burada uşaq futbolunun, futzalın yaradılması muxtar respublikada idman sahəsində aparılan uğurlu siyasətin nəticəsidir. Sevindirici haldır ki, bu gün Naxçıvanın şəhər və rayonlarında komandalar tam olaraq formalaşıb, onlar heyətlərində daha çox gənc oyunçulara üstünlük verirlər. Bununla yanaşı, hakim briqadalarının artırılması bizi çox sevindirir. Hazırda Naxçıvanda 30-a yaxın hakim var və onlara Azərbaycan Futbol Federasiyaları Assosiasiyası nəzarət edir. Keçiriləcək hər oyundan öncə təyinatlar açıqlanır və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə oyunlar keçirilir. Qarşıdakı aylarda hakimlərin sayının artırılacağını deyə bilərəm. Daha çox istedadlı və futbola marağı olan, bu sahəni bilən gənclərimizi hakimliyə dəvət edirik. Onlar üçün kurslar, seminarlar təşkil olunur. Seminarların təşkil olunmasında məqsəd isə hakimlərin bu sahədəki bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Eyni zamanda burada oyunları izləyir, hakimlərin idarə etdikləri oyunları müzakirə edirik. Bu işlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyası ilə birgə davam etdiriləcəkdir".



**Ceyhun MƏMMƏDOV**

# Müstəqil Azərbaycanın müasir gəncləri



***Gənc olmaq müstəqil, yeni həyata qədəm qoymaqdır. Gənc olmaq həm də həyatda öz yerini tapmaq üçün mübarizə aparmaqdır. Mübarizə isə arzu və məqsədləri gerçəkləşdirmək yolunda qarşıya çıxacaq maneələri aradan qaldırmaq üçün yeni üsulların axtarılıb tapılmasıdır. Gənc olmaq açıq dənizdə bir gəmidə olmaq kimidir: bəzən sakit, bəzən dalğalı bir mərhələdir. Burada yaşadığın ətraf mühit, ölkə, şəhər mühüm önəm daşımaqdadır. Azərbaycanda gənc olmaq qürurvericidir. Çünki mənim ölkəmdə gənclərin inkişafı üçün hər cür şərait yaradılıb. Mənim Vətənim gələcəyin yaxşı valideynini, savadlı müəllimini, məsuliyyətli rəhbərini, qanunlarını dərindən bilən hüquqçusunu, peşəkar sənətçisini, yaradıcı mühəndisini yetişdirir. Ölkəmizdə aparılan məqsədyönlü gənclər siyasəti qazanılan uğurların təməlini təşkil edir.***

Doğma Vətənimdə gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərimiz həmişə gənclərə güvənib, onlara böyük etimad göstərib. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin əsas tərkib hissəsi olub. Gənclər ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında irəli çəkilərək bütün sahələrdə qabaqcıl yer tutub, daim dövlətin diqqət və qayğısı ilə əhatələniblər. Ümummilli lider öz çıxışlarında Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu dəfələrlə qeyd edib, həmişə gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirib, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verib və bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirib. Ulu öndərin müxtəlif dövrlərdə imzaladığı qanun, fərman və sərəncamlar, eləcə də qəbul etdiyi dövlət proqramları yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılmasını, onların sosial-maddi şəraitinin yüksəldilməsini, ictimai fəallığının artırılmasını təmin edib.

2 mart 1999-cu il tarixdə Azərbaycan Gənclərinin II Forumundakı çıxışında ümummilli lider Heydər Əliyev demişdir: ***"XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti bugünkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız".*** Bəli, ulu öndər hər zaman gəncləri gələcək inkişafımızın möhkəmlənməsində və dövlət quruculuğunda fəal iştirakçı kimi qiymətləndirirdi. Dahi liderin bu sahədə irəli sürdüyü məqsədyönlü prinsiplər Azərbaycan Respublikasının hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

Bu gün müdrik şəxsiyyətin müəyyən etdiyi strateji hədəflər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə davam və inkişaf etdirilir. Dövlət başçısının "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamı, 2017-ci il sentyabr ayının 15-də "Azərbaycan gəncliyi 2016-2021-ci illərdə" Dövlət Proqramı ölkəmizdə gənc nəslin inkişafı ilə bağlı görülən işlərin əhatə dairəsini daha da genişləndirir. Ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolu artır, gənc nəsil tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilir. Gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirilir, gənclərin dövlət idarəçiliyində rolu əhəmiyyətli dərəcədə artır və onların məsuliyyət hissi formalaşır. Ölkə Prezidenti cənab İlham Əliyev gənclərə olan münasibətini belə ifadə edir: ***"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".*** Məhz göstərilən dəstək və diqqət Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Odur ki, Azərbaycan gəncliyi bu gün beynəlxalq aləmdə seçilir və dünya gəncləri arasında qazandığı nüfuz getdikcə artır.

Gənclərin hər sahədə inkişafına yönəlmiş bu dövlət siyasəti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. 2018-ci ildə Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi bir daha sübut etdi ki, qədim diyarımızın gəncləri hərtərəfli dövlət qayğısı ilə





əhatə olunublar. Hazırda muxtar respublikamızda gənclərin fiziki və mənəvi inkişafı, savadlı və sağlam böyüməsi, sosial problemlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır, onların dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə fəal iştirakı təmin edilir, sağlamlıq imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyası, gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülür.

Həmçinin 2018-ci il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Gənclərinin VIII Forumunun, eləcə də noyabrın 26-da Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi, "Avropa günləri" çərçivəsində tam orta məktəblərdə, ali təhsil ocaqlarında bir sıra təqdimatların təşkili, "Azərbaycanda Belarus gəncləri günləri" çərçivəsində Belarus Respublikasından bir qrup gəncin muxtar respublikaya ekskursiyası, ilk dəfə keçirilən yaradıcı gənclər, beynəlxalq şahmat festivallarının keçirilməsi naxçıvanlı gənclərin müxtəlif sahələr üzrə potensialının artırılmasına, Vətən üçün, xalq üçün layiqli vətəndaşlar yetişdirilməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsi zərurətini qeyd edərək demişdir: ***"Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər".***

İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşüb. Ümummilli liderin Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyi münasibətilə keçirilən tədbirdə iştirak edən 50 gənc onları maraqlandıran suallara cavab tapa bilib. Gənclər Naxçıvanın qədim tarixinin öyrənilməsi və müasir inkişafının təmin olunması sahəsində görülən işlər barədə ətraflı məlumat alıblar. Onlar bir daha Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi, onun əsasını qoyduğu dövlət gənclər siyasətinin muxtar respublikamızda uğurla davam etdirilməsi nəticəsində gənclərin inkişafı üçün yaradılan şəraitlə yaxından tanış olublar. Bu tədbir həm də gənclərin fikir mübadiləsi aparmalarına, onlar arasında gələcəkdə daha da möhkəmlənəcək əməkdaşlıq əlaqələrinin yaradılmasına təkan verib.

Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı" təsis edilib, Naxçıvan şəhərində Gənclər və "Gənclik" mərkəzləri, Gənclər Fondu istifadəyə verilib. Bütün bunlar müxtəlif sahələrdə fərqlənən istedadlı gənclərin qabiliyyətinin yüksək qiymətləndirilməsi, gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların inkişafı, asudə vaxtlarının səmərəli təşkili baxımından böyük əhəmiyyətə malikdir.

Bu gün muxtar respublikada məşğul əhalinin əksəriyyətinin gənclərdən ibarət olması, onların dövlət orqanlarında irəli çəkilmələri gənclərə göstərilən diqqət və qayğıdan xəbər verir, öz istedadları üzərində daha səylə çalışmalarına güclü təkan yaradır. Artıq gənclərimiz yeni texnologiyaları yaxından mənimsəməklə səmərəli ideya, layihə və təşəbbüslər – startaplar ətrafında birləşirlər.

Qədim diyarımızda dövlət gənclər siyasəti beynəlxalq müstəvidə inkişaf edir. Bu gün muxtar respublikamızda dünya, Avropa, Asiya çempionatlarında, beynəlxalq turnirlərdə medal qazanmış gənclərin əldə etdiyi nailiyyətlər onu göstərir ki, Naxçıvan gəncliyi gündən-günə respublikamızın hər bir sahəsində uğur qazanmaqdadır.

Bütün bunlar isə gənclərimizin sabaha və gələcək uğurlara olan inam hissini hər keçən gün daha da artırır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***Bu məqalə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

***1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür***

## Sağlam həyat tərzi QİÇS-siz həyatdır

***Hər il dekabr ayının 1-i Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qeyd edilir. QİÇS-lə Mübarizə Gününün məqsədi dünya ictimaiyyətinin diqqətini bu problemin həllinə cəlb etməkdən, insanları maarifləndirməkdən ibarətdir.***

Qazanılmış immunçatışmazlığı sindromu (QİÇS-SPİD) eyniadlı virus – insanın immunçatışmazlığı virusu (İİV) tərəfindən törədilən ən təhlükəli infeksion xəstəliklərdəndir.

Narkomaniya, qeyri-sağlam həyat tərzi, antisanitariya QİÇS-in yaranma və yayılmasının əsas səbəblərindəndir. Bundan başqa, yoxlanmamış donor qanın köçürülməsi zamanı birdəfəlik şprislərin təkrar istifadəsi, steril olmayan tibbi alətlər, döymə, qulaq və bədənin digər üzvlərinin deşilməsi, manikür, gigiyenik tələblərə cavab verməyən əşyalardan istifadə və başqa amillər də yoluxmaya gətirib çıxara bilər.

Qeyd edək ki, 1996-cı il aprelin 16-da ölkəmizdə "İnsan immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (QİÇS) yayılmasının qarşısının alınması haqqında" Qanun qəbul olunub. 2010-cu ildə isə qanun yenidən işlənərək bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilib.

Ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində son illər immunçatışmazlığı virusuna yoluxma səviyyəsi stabildir. Bu gün muxtar respublikamızda da yoluxma səviyyəsinin aşağı olması çox sevindirici haldır. Lakin ərazimizin 3 dövlətlə həmsərhəd olması, xarici ölkələrə gediş-gəlişin artması, əksər ölkələrdə bu xəstəliyin sürətlə çoxalması muxtar respublikada da QİÇS-in yayılmasına səbəb ola bilər. Ona görə də QİÇS-in profilaktikasına dair epidemioloji nəzarət və təbliğat gücləndirilir, xəstəliyin vaxtında aşkar edilməsi məqsədilə bütün donorlar, ümumiyyətlə, risk qrupuna aid olan bütün şəxslər laborator müayinələrə cəlb edilir. Bu gün muxtar respublikada nikaha daxil olmaq istəyən şəxslər hepatit B, hepatit C, o cümlədən QİÇS üzrə tibbi müayinələrə cəlb olunurlar. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin yeni binasında fəaliyyət göstərən QİÇS-lə mübarizə şöbəsi üçün müasir iş şəraiti yaradılmış, ən müasir laboratoriya avadanlıqları quraşdırılmışdır.

QİÇS-lə mübarizə şöbəsində ailə qurmaq istəyən gənclərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlər verilir. Bu profilaktik tədbirlərlə yanaşı, səhiyyə maarifi, əhalinin sağlam həyat tərzi də diqqət mərkəzində saxlanılır. Belə maarifləndirici tədbirlərin həyata keçirilməsi xəstəliyin yayılması və qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir.

Muxtar respublikada son illər ölkəmizin gələcəyi olan gənclərin savadlı, dünyagörüşlü və sağlam böyüməsi məqsədilə müasir təhsil və idman infrastrukturu yaradılmış, gənclərin asudə vaxtlarının səmərəli təşkili təmin edilmişdir. Artıq muxtar respublikada zərərli vərdişlərdən uzaq, bilikli və sağlam həyat tərzi keçirən vətənpərvər gənc nəsil yetişib.

Unutmayaq ki, hər bir insanın sağlamlığı, ilk növbədə, onun özündən asılıdır. Normal həyat tərzi sürmək üçün hər kəs daim öz sağlamlığının qayğısına qalmalı, zərərli vərdişlərdən uzaq olmalı, gigiyena və sanitariya qaydalarına əməl etməli, xüsusilə də QİÇS-ə qarşı mübarizədə fəallıq göstərməlidir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


### Azərbaycan Respublikası "Naxçıvan" Universiteti müvafiq kafedralar üzrə Baş müəllim yerlərini tutmaq üçün müsabiqə elan edir

Kafedralar üzrə boş yerlər aşağıdakı kimidir:

İdarəetmə kafedrası – 4 yer
Azərbaycan dili və ədəbiyyat kafedrası – 2 yer
Xarici dillər kafedrası – 3 yer
İqtisadiyyat kafedrası – 2 yer
Pedaqogika və psixologiya kafedrası – 1 yer
Riyaziyyat və informatika kafedrası – 1 yer
Təbiət elmləri kafedrası – 1 yer

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

*Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi*
*Telefon: (036)545-07-45*



### İtmişdir

Naxçıvan şəhəri, Nağı Qəhrəmanov küçəsi ev 2-də qeydiyyatda olan Əliyev Məmməd Əli oğlunun adına olan 3228 inventar nömrəli texniki pasport və 08/262a nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Vüqar Əmrah oğlunun adına verilmiş hərbi bilet itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 818